## Hərbi tibb mütəxəssislərinin görüşü keçirilib



Azərbaycan Respublikası Müdafiə Nazirliyi ilə Serbiya Respublikası Müdafiə Nazirliyi arasında cari il üçün ikitərəfli əməkdaşlıq planına əsasən, oktyabrın 20-də Bakıda tibb xidməti üzrə ekspertlərin görüşü keçirilib.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən bildiriblər ki, tədbirdə nazirliyin Tibb Baş İdarəsinin rəisi, tibb xidməti general-mayoru Natiq Əliyev, Serbiya Müdafiə Nazirliyi Hərbi Tibb Akademiyasının nümayəndələri, polkovnik Draqan Dinçin və polkovnik Neboyşa Yoviç iştirak ediblər.

İki gün davam edəcək tədbirdə hərbi tibb mütəxəssisləri təcrübə və fikir mübadiləsi ilə bölüşəcəklər.

Səfər zamanı qonaqlar Silahlı Qüvvələrin Baş Klinik Hospitalındakı şəraitlə tanış olacaq və Hərbi Tibb Fakültəsindəki tədris prosesini izləyəcəklər.

## Berndə Ermənistan-Azərbaycan münaqişəsi ilə bağlı konfrans



Bern Universitetində Avropa İnsan Haqları Məhkəməsinin "Çıraqov və digərləri Ermənistana qarşı" işi üzrə elmi konfrans keçirilib.

Professor Deniz Brül-Mozerin moderatorluğu ilə keçirilən konfransda Boxum Sülh və Hərbi Münaqişə üzrə Beynəlxalq Hüquq İnstitutunun professoru Hans-Yoaxim Hayntse, İstanbul Koç Universitetinin Qlobal Ümumi Hüquq Mərkəzindən Valentina Azarova, Avropa İnsan Haqları Məhkəməsində sözügedən iş üzrə üçüncü tərəf qismində Azərbaycanın maraqlarını təmsil edən Avstriyanın "Lansky, Ganzger und Partner" hüquq şirkətinin rəhbəri Qabriel Lanski, Azərbaycanın Avropa İnsan Haqları Məhkəməsi yanında səlahiyyətli nümayəndəsi Çingiz Əsgərov və "Mergen Consulting" şirkətinin rəhbəri Rəhmi Doğan məruzə ilə çıxış ediblər.

Məruzəçilər Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin tarixi və hüquqi aspektlərinə diqqəti cəlb edib, Dağlıq Qarabağda yaşayan ermənilərin öz müqəddəratlarını nə üçün məhz Azərbaycan daxilində təyin etməli olduqlarını əsaslandırıb, daha sonra konkret məhkəmə işi ilə bağlı Azərbaycan və Ermənistan tərəfinin təqdim etdiyi dəlil və faktları və onlara Məhkəmənin verdiyi qiyməti, nəhayət, bununla bağlı çıxardığı qərarı təhlil ediblər. Bir daha vurğulanıb ki, məhkəmə tecavüz aktını bilavasitə dəyərləndirmək niyyətində olmasa da, münaqişənin tərəfi kimi ən başlanğıcdan məhz Ermənistanın olduğunu öz qənaətləri ilə təsbit edib. Bundan irəli gələrək, məruzəçilər Ermənistan-Azərbaycan münaqişəsində məhz hərbi işğal faktının baş verdiyini, Azərbaycan torpaqlarının Ermənistan tərəfindən işğal olunduğunu təsdiq ediblər.

İsveçrənin elmi və siyasi dairələrinin, o cümlədən federal hakimiyyət qurumlarının, Berndə akkreditə olunmuş səfirliklərin nümayəndələrinin, eləcə də İsveçrə universitetlərinin tələbələrinin qatıldıqları konfrans sonra interaktiv şəkildə davam etdirilib.

# Neft strategiyası: dövlət müstəqilliyimizin qarantı

### BU STRATEGİYA YENİCƏ MÜSTƏQİLLİK QAZANMIŞ AZƏRBAYCANIN DAĞILMIŞ İQTİSADİYYATINI DAHA MÜKƏMMƏL ŞƏKİLDƏ YENİDƏN QURMAĞA İMKAN VERDİ

Düz 22 il əvvəl, 1994-cü ilin payız günlərinin birində - 20 sentyabrda Xəzərin Azərbaycan sektorunda neft ehtiyatlarının istismarı məqsədilə xarici şirkətlərlə "Əsrin müqaviləsi" imzalandı. "Azəri", "Çıraq" və "Günəşli" yataqlarının işlənməsindən başlanan bu razılaşma sonradan ölkəmizin və regionun siyasi atmosferinə bir ılıqlıq, özünün tənəzzül dövrünü yaşayan Azərbaycan itisadiyyatına güc gətirdi. Cəmi bir neçə il ərzində isə dövlət müstəqilliyimizlə paralel nəhəng iqtisadi gücə və potensiala malik neft ehtiyatlarımız da müstəqil Azərbaycan Respublikası qarşısında yeni bir pəncərə açdı. Dövlət müstəqilliyini yenicə qazanmış, bütün iqtisadiyyatı dağılmış və bir siyasi-iqtisadi mühitdən başqa bir mühitə düşmüş ölkə kimi biz neft gəlirlərinə böyük ümid yeri kimi baxmışıq.

SOCAR ilə dünyanın nüfuzlu neft şirkətləri arasında imzalanmış bu beynəlxalq səviyyəli saziş "Azəri", "Çıraq" və "Günəşli" yataqlarının birgə işlənməsinə, Bakı-Tbilisi-Ceyhan (BTC) neft kəmərinin tikintisinə yol açmaqla bütün dünyaya əfsanə kimi görünən bir neçə nəhəng enerji layihələrini gerçəyə çevirə bildi. Məhz bu tarixi addımla həm də iqtisadi müstəqilliyini bir daha sübut edən Azərbaycan öz sərvətlərinə tam sahib olduğunu bütün dünyaya nümayiş etdirildi. Bu müqavilə milli sərvətlərimizdən müstəqil dövlətimizin və xalqımızın rifahı naminə istifadə olunması, on illərlə imperiya maraqlarına xidmət etmiş karbohidrogen ehtiyatlarının müstəqil Azərbaycanın möhkəmlənməsi naminə xarici investisiyaların cəlb olunmasına da geniş imkanlar yaratdı. Ölkə iqtisadiyyatının inkişafında, milli gəlirlərin formalaşmasında faktiki üstünlüyə malik neft gəlirləri məhz 22 il əvvəl SOCAR ilə dünyanın nüfuzlu şirkətləri arasında imzalanmış sazişin bəhrəsidir. Düz 22 ildir ki, bu tarixi sazişlə özünün dayanıqlı inkişafını təmin edən Azərbaycan dünyaca məşhur TAP və TANAP layihələri ilə neft strategiyasının yeni-yeni mərhələlərini yaratmaqdadır.

Bəs, Azərbaycanın müstəqilliyinin iqtisadi bünövrəsində milli neft strategiyasının rolu nədən ibarətdir? Neft strategiyası ölkəmizin iqtisadi müstəqilliyinin qorunması və möhkəmləndirilməsi üçün hansı dividentlər qazandırıb?

#### Neft gəlirləri: nə qazandıq, nə xərclədik?

Bəri başdan deyək ki, Azərbaycanın neft satışından əldə etdiyi ən böyük gəlirlər 2008-ci ildən sonrakı dövrə təsadüf edir. Belə ki, 1999-cu ilin dekabrından 2008-ci ilin 1 yanvar tarixinədək Azərbaycanın Hasilatın Pay Bölgüləri Sazişləri (HPBS) üzrə əldə etdiyi mənfəət neftinin dəyəri cəmi 4 milyard 526,7 milyon dollar olduğu halda, 2008-ci ilin sonunda mənfəət neftinin Azərbaycan Respublikası Dövlət Neft Fonduna (ARDNF) gətirdiyi gəlir 11 milyard 527 milyon manat və ya təqribən 14,41 milyard dollar təşkil edib. Karbohidrogen ehtiyatlarının sürətli istismarından sonra Azərbaycanda həm büdcənin xərcləri, həm də ARDNF-dən büdcəyə transfertlər demək olar ki, həndəsi silsilə üzrə artmağa başlayıb. Məhz neft gəlirləri hesabına son 11 ildə (2004-2015-ci illərdə) təkcə dövlət proqramları çərçivəsində regionların sosial-iqtisadi inkişafına 38,5 milyard manat və ya 48,2 milyard dollar vəsait xərclənib.

Bu məqamda milli neft strategiyasının uğurla həyata keçirilməsində Dövlət Neft Fondunun da rolu xüsusi qeyd edilməlidir. Həm də ona görə ki, bu Fond neft strategiyasının tərkib hissəsi kimi iqtisadi müstəqilliyimizin möhkəmləndirilməsində birbaşa iştirak edib. Belə ki, son illər ölkənin iqtisadi gücünün artırılmasına yönəlik ən iri layihələr və bəzi mühüm sosial infrastruktur proqramları məhz ARDNF-də toplanmış vəsaitlər hesabına gerçəkləşdirilib. Bunların arasında "2007-2015-ci illərdə Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramı", ölkənin müxtəlif şəhər və rayonlarında məcburi köçkünlər üçün salınan yeni şəhərciklərin tikintisi, Samur-Abşeron kanalının yenidən qurulması kimi iri layihələr xüsusi qeyd olunmalıdır. Bundan başqa, beynəlxalq əhəmiyyətinə və maliyyə tutumuna görə Cənubi Qafqaz regionunun ən iri investisiya layihələri sayılan Bakı-Tbilisi-Qars dəmir yolunun tikintisi, "Cənub Qaz Dəhlizi" layihəsində Azərbaycan Respublikasının iştirak payının maliyyələşdirilməsi də məhz ARDNF-nin xərc istiqamətlərinə aiddir.



#### Dövlət Neft Fondu: xoşbəxt gələcəyin qarantı

Dünyanın tanınmış neft şirkətləri ilə Xəzər dənizinin Azərbaycan sektorunda "Azəri", "Çıraq" və "Günəşli" yataqlarının birgə işlənməsi və neft hasilatının pay bölgüsü haqqında sazişin imzalanmasından 5 il sonra - ulu öndər Heydər Əliyevin 29 dekabr 1999-cu il tarixli Fərmanı ilə təsis edilmiş ARDNF də milli neft strategiyasının tərkib hissəsi kimi ölkə iqtisadiyyatının inkişafında böyük irəliləyişlərə imza atmağa başladı. Belə ki, Azərbaycanın neft satışından əldə etdiyi gəlirlər ARDNF-də toplanır. Fond isə həmin fəsaitin 25 faizinə qədərini gələcək nəsillər üçün saxlayır. Yerdə qalan vəsait büdcə xərcləri çərçivəsində investisiya layihələrinə sərf olunur.

Yeri gəlmişkən, hazırda ARDNF-də toplanan neft pulları və aktivlər 12 növ müxtəlif valyutalardan ibarət səbətdə saxlanılır. Belə ki, aktivlərin 47,6 faizi ABŞ dolları, 35,3 faizi avro, 5,3 faizi manat, 4,9 faizi ingilis funtu, 3,8 faizi qızıl, 1,5 faizi rus rublu, 1,4 faizi Çin yuanı, 1,3 faizi Koreya vonu, 1,2 faizi türk lirəsi, 1,1 faizi yapon ienası, 0,6 faizi Avstraliya dolları ilə və digər valyutalarda saxlanılır. Fondun aktivlərinin 68,6 faizi inkişaf etmiş ölkələrdə, 28,8 faizi inkişaf etməkdə olan ölkələrdə, 2,6 faizi isə beynəlxalq maliyyə intitutlarında yerləşdirilib.

Ölkəmizin payına düşən karbohidrogenlərin satışından əldə edilən xalis gəlirlərdən başqa, karbohidrogenlərin nəql edilməsi üzrə məsrəflər, bank, gömrük rəsmiləşdirilməsi, müstəqil nəzarət, marketinq və sığorta xərcləri, habelə SOCAR-ın sərmayeçiləri, paycısı və ya tərəfdaşı olduğu layihələrdə onun sərmayəsinə və ya iştirak payına düşən gəlirlər də dövlət büdcəsinə xeyli maliyyə qazandırır. ARDNF-nin hesablamalarına görə, 2001-2015-ci illərdə bu məhsulların ixracatından Fondun gəlirləri 124,9 milyard dollar və yaxud son 15 ildə orta hesabla 6,6 milyard dollar olub. Bu isə o deməkdir ki, təkcə ARDNF son 15 ildə neftdən hər gün 18 min 265 dollar, hər ay isə 555 milyon 555 min dollar vəsait qazanıb. Bundan əlavə, 2010-2015-ci illərdə Dövlət Neft Fondunun valyuta aktivlərinin yerləşdirilməsindən və idarə olunmasından 2,4 milyard manat qazanc əldə edib.

Bu ilin 9 ayında Fondun vəsaitinin idarə olunmasından əldə edilən gəlirləri 734,8 milyon manat təşkil edib. Bu, manat ifadəsi ilə ötən ilin eyni dövründəkindən 15 dəfəyədək, dollar ifadəsi ilə 10 dəfəyədək çoxdur. Ekspertlərin qənaətinə görə, ARDNF-nin hazırkı siyasətindəki müsbət dəyişikliklər yalnız aktivlərinin və vəsaitlərinin idarə olunmasından əldə edilən gəlirlərinin artımı ilə xarakterizə olunmur, eyni zamanda Fondun büdcəsinin xərclər hissəsində rasionallaşma müşahidə olunub. Belə ki, Neft Fondundan ötən ilin eyni dövründə 2015-ci il büdcəsinin icrası çərçivəsində 5,65 milyard manat vəsait dövlət büdcəsinə transfert edilmişdirsə, bu ilin eyni dövründə 2016-cı il dövlət büdcəsinə cəmisi 3,26 milyon manat vəsait köçürülüb. Bu göstərici ötən illə müqayisədə 42,3 faiz azdır və bu il üzrə proqnozun 47,2 faizini təşkil edir.

#### Çətin iqtisadi dövr üçün ən yaxşı nümunə

ARDNF-nin büdcəsinin icrasında diqqəti çəkən müsbət məqamlardan biri də ötən ilin eyni dövrü ilə müqayisədə Fondun idarə edilməsi ilə bağlı xərclərinin 20,2 milyon manatdan 11,9 milyon manata qədər azalmasıdır. Bu, o deməkdir ki, ARDNF hazırkı çətin makroiqtisadi və maliyyə durumunda xeyli müsbət nəticələr əldə edib. Elə iqtisadçı mütəxəssislər də Fondun aktivlərinin və valyuta idarəetməsindən gəlirlərinin əhəmiyyətli artmasını, xərclərinin isə kəskin şəkildə azalmasını menecmentin düzgün qurulmasının göstəricisi kimi xarakterizə edirlər. Bütövlükdə isə hazırkı makroiqtisadi şəraitdə ARDNF-nin valyuta idarəetmə və menecment siyasəti təqdir olunur.

Yeri gəlmişkən, bu ilin əvvəlindən Dövlət Neft Fondunun investisiya portfelində dəyişiklik edilib. Belə ki, yeni investisiya siyasətinə əsasən, səhmlər və daşınmaz əmlaka investisiyaların həcmi artırılıb. "Azərbaycan Respublikası Dövlət Neft Fondunun valyuta vəsaitlərinin saxlanılması, yerləşdirilməsi və idarə edilməsi haqqında Qaydalar"a edilmiş dəyişikliklərə uyğun olaraq, qəbul edilmiş yeni investisiya siyasətinə əsasən, maksimum yuxarı uzaqlaşma intervalı 2 faiz olmaqla investisiya portfelinin məcmu dəyərinin 10 faizə qədəri daşınmaz əmlaka yönləndirilə bilər. Halbuki əvvəl bu hədd investisiya portfelinin 5 faizə qədərini təşkil edirdi. Səhm portfelində bu hədd 10 faizdən 15 faizə qaldırılıb. Qızıla investisiya siyasətində isə heç bir dəyişiklik yoxdur və əvvəlki illərdə olduğu kimi, maksimum yuxarı uzaqlaşma intervalı 3 faiz olmaqla Fondun investisiya portfelinin məcmu dəyərinin 5 faizə qədəri qızıla investisiya edilə bilər.

Bütün bunlar neft strategiyasının ölkəmizin iqtisadi müstəqilliyinin qorunması və möhkəmləndirilməsinə xidmət edən mühüm amillərdir. Çünki neft gəlirləri Azərbaycanın hərtərəfli inkişafını şərtləndirən, qeyri-neft sektoruna sərmayə qoyuluşunda mühüm rol oynayan əsas amil kimi xüsusi əhəmiyyət daşıyır. Təsadüfi deyil ki, müstəqillik dövründə Azərbaycanda yaradılan istehsal müəssisələri, Bakıda və regionlarda yenidən qurulan yol təsərrüfatı, içməli su, elektrik enerjisi, təbii qaz, rabitə xidmətləri və sosial infrastruktura aid digər layihələrin böyük əksəriyyəti məhz neft gəlirləri hesabına reallaşdırılıb. Məhz neft strategiyasının Azərbaycana qazandırdığı iqtisadi dividentlər hesabına ölkənin cənubundan qərbinə, şərqindən şimalına qədər Avropa standartlarına uyğun magistral yollar çəkilib, regionlarda müasir texnologiyaya əsaslanan sənaye parkları yaradılıb. Uğurla həyata keçirilən neft strategiyasının reallaşmasından sonra ölkədə yeni-yeni istehsal müəssisələri yaradılmağa başladı ki, bunlar da öz növbəsində Azərbaycanın iqtisadi müstəqilliyini təmin edərək ölkəmizi regionun lider dövlətinə çevirdi.

**Elxan Salahov, *"İki sahil"***

*Yazı Azərbaycan Respublikası Dövlət Neft Fondu ilə Azərbaycan Mətbuat Şurasının "Azərbaycanın müstəqilliyinin iqtisadi bünövrəsində milli neft strategiyasının rolu: Azərbaycan Respublikası Dövlət Neft Fondu milli neft strategiyasının tərkib hissəsi kimi" mövzusunda keçirdiyi müsabiqəyə təqdim edilir.*